**UOT 316**

# MƏİŞƏT ZORAKILIĞINA NƏZƏRİ YANAŞMALAR

**Məftunə İSMAYILOVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 14 iyul 2023; çapa qəbul edilmişdir: 22 avqust 2023; online-da çap edilmişdir: 27 sentyabr 2023.
Received: 14th of July, 2023; accepted: 22th of August, 2023; published online: 27th of September, 2023.

**Açar sözlər:** *gender bərabərsizliyi, bio-psixoloji yanaşma, psixoanaliz yanaşması, iqtisadi yanaşma, mühitin təsiri*

## Giriş

Məişət zorakılığının gender aspektlərinin nəzəri əsaslarının araşdırılması sosioloji tədqiqatlar üçün geniş metodoloji imkanlar açır. Mövzu ilə bağlı mövcud nəzəri yanaşmaları gender, bioloji, psixopatoloji, feminist, ailə sosiologiyası baxımından qruplaşdırmaq mümkündür. Qərb ənənəsində məişət zorakılığını izah etmək üçün nəzərdə tutulmuş bir neçə əsas yanaşma mövcuddur:

1. Tarixi yanaşma və ya keçmişin yadigarı kimi zorakılıq – arvadın (Qondolf və Fişerin əsas davamçıları) cəzalandırılması və nizam-intizamı üçün ənənədə və bəzən qanunla təsbit edilmiş hüququ;
2. Vigitimoloji yanaşma – qurbanın davranışı ilə cinayətkarın (Şnayder) hərəkətləri arasındakı əlaqənin izahı;
3. Sosial adaptasiya nəzəriyyəsi – kişi təcavüzkarının şəxsiyyətinin formalaşmasında yaxın mühitin rolu (Kaufman);
4.İnteraktiv nəzəriyyə – güc münasibətləri problemi və ünsiyyət yolu kimi zorakılıq (Kimmel); struktur nəzəriyyəsi – patriarxat psixologiyasının cəmiyyətdə zorakılığa qarşı tolerant münasibətin inkişafına təsiri (Şeler);
5. Situasiya yanaşması – ailədə hakimiyyətin bö lüşdürülməsində şəraitin rolu [13, s. 4].

## Məişət zorakılığı ilə bağlı araşdırmalar

P.Gearan və A.Rosenbaum “Münasibətlərdəki aqressiyanın bioloji amilləri” adlı tədqiqatlarında intim tərəfdaş zorakılığının bioloji amillərini aşağıdakı kimi təsnif edirdilər:

1. Baş zədəsi və nevropsixoloji amillər;
2. Psixofizioloji amillər;
3. Neyrokimyəvi, metabolik və endokrin amillər;
4. Genetik faktorlar.

Bununla belə, bioloji amillər IPV-nin törədilməsinə kömək edən psixoloji, sosial və ətraf mühit təsirləri arasında mürəkkəb qarşılıqlı əlaqənin yalnız bir hissəsidir [11, s.17].

Qeyd edilməlidir ki, yalnız uşaqlıq dövründə deyil, müəyyən yaş dövrlərində fiziki zədə almış, döyülmüş, cəzalandırılmış, işgəncələrə məruz qalmış və s. şəxslərdə psixi və psixoloji dəyişikliklərin nəticəsi olaraq məişət zorakılığının izlənməsi qacınılmazdır.

[*] *doktorant, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*e-mail*: maftuna_i@mail.ru

Çox zaman həbs həyatı keçirmiş, əsirlikdə olmuş, eyni zamanda müharibədə iştirak etmiş və s. bu tipli çətin həyat şəraiti ilə üzləşən insanların ailələrində tez-tez məişət zorakılığı halları baş verir.

B.Bridqetin *"Güc və nəzarət" nəzəriyyəsinə görə zorakılığa meylli tərəf davamlı olaraq öz davranışlarında fərqli* şiddət taktikaları göstərir, zorakılığa məruz qalan tərəf üzərində daim müxtəlif formalı nəzarət tətbiq etməyə çalışır, onun fikirlərinə hörmət etmir, öz qərarını qəbul etdirməyə, onun davranış və fəaliyyətini yönləndirməyə, bir sözlə onu özü istədiyi kimi idarə etməyə səy edir.

Bu zaman zorakılıq göstərən tərəf əsasən fiziki və cinsi şiddət nümayiş etdirir, öz qurbanını daimi qorxu və nəzarət altında saxlamağa can atır [4, s. 1095].

Zorakı aqressiyanın əsasında duran psixoloji mexanizmləri sosial həyatın spesifik adaptiv problemləri kontekstində izah etməyə çalışan D.M.Buss və T.K.Şakelford kimi bir çox müəlliflər isə müxtəlif tipli məişət zorakılığını sosial resurslar, sosial status, sosial iyerarxiya və genetik əsaslarla əlaqələndirirlər [5, s. 605-609].

Məişət zorakılığının tədqiqi istiqamətində *psixoanalitik nəzəriyyə*yə tez-tez müraciət edilir. Psixoanalitik nəzəriyyənin banisi olan Z.Freyd vurğulayırdı ki, "*insan ancaq bir ehtirasa - istər özünü, istərsə də başqa insanları məhv etməyə aludədir*". Z.Freyd "*insanların bir-birinə qarşı ilkin düşmənçiliyini" nəzərə almaq lazım olduğunu və aqressiyanın özünü "insan təbiətinin sarsılmaz xüsusiyyəti*" kimi büruzə verdiyini göstərirdi.

E.Fromm isə qeyd edirdi ki, "*...aqressivlik qıcıqlanmaya reaksiya deyil, insanın özünün konstitusiyasına, insanın təbiətinə görə insan orqanizmində daim mövcud olan bir impulsdur*" [12, s. 34].

Bir çox genderşünaslar ifrat maskulin aqressivliyi psixopatologiya ilə əlaqələndirir, bunu məişət zorakılığının bilavasitə fərdə aid olan başlıca səbəbi hesab edirlər və şəxsiyyətlərarası digər problemlərlə yanaşı mövcud olduğunu göstərirlər. Məişət zorakılığı nümayiş etdirən tərəfin funksional pozğunluqları iş yerində, dostlar qrupunda, digər sosial münasibətlərdə də özünü göstərə bilər. Müəyyən zamandan başlayaraq açıq şəkildə nəzərə çarpan məişət zorakılığının əslində uzun müddət ərzində gizli şəkildə mövcud olması zənn edilir. Məişət zorakılığının köklərini öyrənərkən şəxsin həyatında olmuş travmaların və streslərin öyrənilməsi vacib şərt kimi irəli sürülür və bu əsasda şiddət nümayiş etdirən şəxsin müalicə edilməsinin mümkünlüyü fikri inkişaf etdirilir [7, s. 23-27].

Frank L.Qardner, Zella E.Moore və M.Dettorenin tədqiqatları deməyə əsas verir ki, sosial sağlamlıq problemi ilə bağlı olan zorakılıq daha çox uşaqlıq dövründə zorakılığa, şiddətə məruz qalmış insanlar tərəfindən törədilir və bununla əlaqədar belə insanlar emosiyalarının tənzimlənməsində çətinliklər çəkirlər [9, s. 32-37].

Tolman, Bennet, Kunningham, Leonard, Breklin, Villiams və bir çox tədqiqatçılar əmindirlər ki, məişət zorakılığında alkoqol və narkotik aludəçiliyi əsaslı təsirə malikdir. O'Farrel tərəfindən aparılan araşdırma göstərmişdir ki, alkoqolizm və narkomaniyadan əziyyət çəkən insanların, xüsusilə də kişilərin 50-60%-i davamlı məişət zorakılığı törədiblər və onların 25-30%-nə aid zorakılıq xüsusilə ağır cinayətlə nəticələnmişdir. Müəllif tədqiqatın nəticəsi olaraq belə qənaətə gəlmişdir ki, əgər insan uşaq istismarının qurbanı, uşaqlıqda məişət zorakılığının şahidi olmuş və zorakılığa məruz qalmışdırsa, onun böyük yaşlarında alkoqol aludəçisi olacağını və davamlı məişət zorakılığı törədəcəyini proqnozlaşdırmaq olar. Tolman və Bennet qeyd edirlər ki, xroniki alkoqol xəstələrinin antisosial və ya sosiopatik şəxsiyyət xüsusiyyətlərinə sahib olması və zorakılıq törətməsi ehtimalı yüksəkdir [1, s.104].

Feminizm tərəfdarları C.Lombroso, V.Ferrero, V.Thomas, Z.Freyd, O.Pollak və

başqalarının ənənəvi əsərlərində aşkar edilən cinsiyyətçi fərziyyələri çalışdılar və fikirlərini belə əsaslandırırdılar ki, bu nəzəriyyələr kişilərin zorakı davranışlarının öyrənilməsinə yönəlib, qadınlar arasında da cinayətkarlar və şiddət nümayiş etdirənlər az deyil [6]. O da qeyd edilir ki, bir çox hallarda uzun müddət müxtəlif tipli zorakılığa məruz qalan qadınlar zorakılıq törədən şəxsi öldürürlər ki, bu da cismani zorakılığın bir formasıdır.

Dovninq və Rouş *İnkişaf yanaşmasını* mənimsəyərək, "Feminist özünütəyinetmənin inkişaf modelini" inkişaf etdirmişlər. Bu nəzəriyyədə Dovninq və Rouş Krossun "Qara şəxsiyyətin inkişafı" nəzəriyyəsini qadınlara uyğunlaşdırmaqla qadınların müsbət feminist kimliyini əldə etməsini və saxlanmasını konseptuallaşdırmağa çalışdılar. Onların təklif etdiyi bu inkişaf modeli qadınların, etnik azlıqlar və ya imkansız qruplar kimi, qərəz və ayrı-seçkiliyə məruz qalması fikrinə əsaslanır [8, s. 15-29].

Müasir tədqiqatçıların bir çoxu zorakılığın müxtəlif oyunlar, filmlər, sosial şəbəkələr və s. vasitəsilə təbliğ edildiyini və insanlar tərəfindən zorakı davranışın qeyri-şüuri şəkildə mənimsənildiyini bildirirlər.

Qeyd edilməlidir ki, ayrı-ayrı metodoloji-variasiyalar məişət zorakılığının ümumiyyətlə polis hesabatlarında göstərildiyindən daha geniş yayılmış problem olduğu qəbul edilir. Məişət zorakılığının yayılması halları, gender bölgüsü, səbəbləri, nəticələri və riskləri ilə bağlı aparılan tədqiqatlar bu sosial hadisənin zaman, məkan, ictimai münasibətlər, iqtisadi inkişaf, əhalinin rifah halı, təhsillənmə imkanları və s. amillərlə əlaqəliliyini, əhatə dairəsini müəyyənləşdirməyə yönəlmişdir.

T.K.Rostovskayanın qeyd etdiyi kimi: "Kəskin sosial problem olan zorakılıq yalnız qurbana təsir etmir, həm də bütövlükdə cəmiyyətdə qeyri-sabitlik, sosial nizama təhlükə yaradır" [14, s. 78-88].

J.Lanqhinriksen-Rohlinq, P.Neidiq və Q.Torn ailədə zorakılıq hallarının gender əsaslarını araşdıraraq belə bir qənaətə gəlmişlər ki:

1) qadınlara qarşı zorakılıq – adətən, kişi partnyorları tərəfindən onlara qarşı zorakılıq kontekstində baş verir;

2) ümumiyyətlə, qadınlar və kişilər oxşar səviyyələrdə fiziki və psixoloji aqressiya nümayiş etdirirlər, lakin sübutlar göstərir ki, kişilər qadınlara nisbətən cinsi zorakılığa, məcburi nəzarətə və təqiblərə daha çox meyllidirlər və qadınların da yaralanma ehtimalı daha yüksəkdir;

3) qadınlar və kişilər arasında ər və ya arvad tərəfindən iqtisadi sui-istifadə ilə əlaqəli fiziki zorakılıq az hallarda təzahür edir, əsasən, "intim terrorizm"lə əlaqəli münasibətlərdə kişilərin sui-istifadəçi, qadınların isə qurbanlar olması ehtimalı daha yüksəkdir;

4) qadınların fiziki zorakılığı özünü müdafiə və qorxu ilə motivasiya edilir, kişilər tərəfindən fiziki zorakılıq isə qadınlar üzərində nəzarət motivləri ilə motivasiya edilir;

5) qarşılıqlı zorakılığa məruz qalan cütlüklərin araşdırılması belə bir fikir söyləməyə əsas verir ki, məişət zorakılığı kişilərə nisbətən qadınlar üçün daha çox mənfi nəticələr ortaya qoyur [10, s. 160-163].

Məişət zəminində münaqişələrin əsasında duran başlıca amillərdən biri ailənin rifah halı ilə bağlıdır. Ölkədə iqtisadi vəziyyətin çətinliyi, sosial rifahın zəif olması ailə üzvləri arasında münasibətlərin pozulmasına, münaqişə şəraitinin yaranmasına gətirir. Münaqişə şəraiti isə mütləq şəkildə şiddət və zorakılıqla müşayiət olunur. Qarşılıqlı münasibətlərdə münaqişə vəziyyətinin yaranmasına gətirən amillər sırasında aşağıdakılar daha çox nəzərə çarpır:

1. sosial statusda uyğunsuzluq;
2. cəmiyyətdə qadın və kişiyə xas rollarla bağlı hakim fikirlər;
3. ailə gəlirinin olmaması;
4. təhsildə fərqlilik.

Təsnifatdan da aydın görünür ki, gender yanaşması ilə *sosial iqtisadi konsepsiya* bir-birilə çox əlaqəlidir. Hər iki yanaşmada ailədə rolların müəyyənləşdirilməsi və resursların bölgüsü ilə bağlı maraqların üst-üstə düşməməsinin məişət zorakılığına gətirdiyi göstərilir. Gender münasibətlərinə sosial iqtisadi yanaşmanın banisi olan Geri Bekker məişət zorakılığını araşdırarkən "kooperativ" və "qeyri-kooperativ" ailə münasibətlərinin öyrənilməsinə xüsusi diqqət ayırmışdır. Ümumiyyətlə, gender münasibətlərinə sosial iqtisadi yanaşma ilə bağlı tədqiqatlarda ailə başçılarının ailə təsərrüfatının idarəçiliyində və tənzimlənməsindəki yatırımları və rolları, onların ortaq olma imkan və bacarıqları təhlil edilir [3, s. 494-499].

Hər bir ailə özlüyündə bir model daşıyıcısıdır. Məhz ailə daxilində cinslər arası və nəsillər arası münasibətlər formalaşır və ailə üzvləri tərəfindən mənimsənilərək ötürülür. Ailə zorakılığı bir çox hallarda məişət zorakılığı kimi səciyyələndirilir. Müxtəlif formalı ailə-məişət zorakılığına, şiddətə məruz qalan yaşlılar, qadınlar və uşaqlar sosial-psixoloji reabilitasiyaya ehtiyac duyurlar. Bu zaman hansı ailə üzvünün davamlı şiddətə məruz qalması və bilavasitə həmin şəxsin deyil, bu şiddəti görərək psixoloji travma yaşayan digər ailə üzvlərinin də reabilitasiyası vacib amilə çevrilir.

Qeyd edilməlidir ki, yalnız uşaqlıq dövründə deyil, müəyyən yaş dövrlərində fiziki zədə almış, döyülmüş, cəzalandırılmış, işgəncələrə məruz qalmış və s. şəxslərdə psixi və psixoloji dəyişikliklərin nəticəsi olaraq məişət zorakılığının izlənməsi qaçılmazdır. Çox zaman həbs həyatı keçirmiş, əsirlikdə olmuş, eyni zamanda müharibədə iştirak etmiş və s. bu tipli çətin həyat şəraiti ilə üzləşən insanların ailələrində tez-tez məişət zorakılığı halları baş verir.

Cəmiyyətin sosial, siyasi, iqtisadi və mədəni əsasları məişət zorakılığının mövcudluğuna başlıca şərtdir. Müxtəlif ictimai quruluşlu cəmiyyətlərdə qadın və kişinin sosial statusları ilə bağlı fərqli sosial münasibətlər sistemi yer almaqdadır. Şəxsiyyətin mənliyinin mühüm tərkib hissəsi olan gender rolları ailə, məktəb, iş yeri, media, musiqi, filmlər və s. təsiri ilə müəyyənləşdirilən sosiallaşma yolu ilə formalaşır. Gender əsaslı zorakılığın ilkin şərtləri kimi adət-ənənələr, xalqın tarixi, dini xüsusiyyətləri əhəmiyyətli təsirə malikdir. Bu xüsusiyyətlər ölkənin sosial-iqtisadi inkişaf imkanları əsasında müəyyən olunur. Məişət zorakılığı inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələrdə rast gəlinir. İqtisadi təsir ilk növbədə statistik göstəricilərdə özünü əks etdirir. Lakin sosial mədəni xüsusiyyətlər bilavasitə məişət zorakılığının mahiyyəti və səbəbləri ilə müəyyən edilir.

**Nəticə**

Ailə başçılarının gəlirləri zorakılıq və şiddət kimi qiymətləndirilən bütün davranışlara əsaslı təsir göstərən amildir. Əgər kişi ailənin xərclərinin hamısını və ya böyük hissəsini ödəyirsə, onun davranışlarında şiddətin müxtəlif formaları müşahidə edilir. Qadının gəliri kişinin gəlirindən çoxdursa və ailənin tələbatlarının ödənilməsinə yatırımı yüksəkdirsə, kişi tərəfindən şiddətə nadir hallarda məruz qala bilər. Əgər kişi ailə büdcəsinə tamamilə qatılmırsa, qadın tərəfindən daha çox psixoloji şiddətə məruz qalır və ailənin dağılması ehtimalı çoxalır.

Gəlirlə yanaşı tərəflərin təhsil səviyyəsi də bir-birlərinə qarşı zorakılıq hallarının təzahür etməsinə təsir göstərən başlıca amillərdəndir. Təhsili daha yüksək olan kişi və ya qadın münasibətlərdə üstünlüyü ələ almağa meyllidir və təhsil amili çox zaman psixoloji şiddətin başlıca amilinə çevrilir.

Beləliklə, məişət zorakılığına müxtəlif yanaşmaların təhlili onu deməyə əsas verir ki, bu asosial davranış bir-birilə bağlı olan çox sayda amillərlə bağlıdır. Lakin xüsusi hallarda bu və ya digər göstəricinin dominant olduğunu söyləmək olar.

## ƏDƏBİYYAT

1. Barnish M. Domestic Violence: A Literature Review. London: HM Inspectorate of Probation, 2004, 147 p.
2. Becker G.S. A Theory of the Allocation of Time // Economic Journal. 1965, Vol. 75, pp. 493-519.
3. Becker G.S. A Theory of Marriage: Part I // Journal of Political Economy, 1973, Vol. 81 (4), pp. 813-846
4. Bridget B, NoËl. Male Customers of Prostituted Women: Exploring Perceptions of Entitlement to Power and Control and Implications for Violent Behavior Toward Women // *Violence Against Women*, vol. 8, no. 9, Sept. 2002, pp. 1093-1112.
5. Buss D.M. and Shackelford T.K.. Human Aggression in Evolutionary Psychological Perspective // Clinical Psychology Review, 1997, Vol. 17, pp. 605-619.
6. Critically assess the contribution of feminist theory to the development of criminology (file:///C:/Users/User/Downloads/Feminist_Theory_in_Criminology_Tara_McGr.pdf)
7. Cunningham M.A., Peter G.Jaffe, Baker L., Trish Dick B.A., Malla S., Mazaheri N., Poisson S. Theory-Derived Explanations Of Male Violence Against female Partners: Literature Update And Relatedimplications For Treatment And Evaluationalison. London: London Family Court Clinic. 1998, 54 p.
8. Fischer A.R., Tokar D.M., Mergl, M.M., Good, G.E., Hill, M.S., & Blum, S.A. Assessing women's feminist identity development: Studies of convergent, discriminant, and structural validity // Psychology of Women Quarterly. 2000, Vol. 24*(*1), pp. 15–29.
9. Gardner F.L., Moore Z.E., Dettore M. The relationship between anger, childhood maltreatment, and emotion regulation difficulties in intimate partner and non-intimate partner violent offenders // Behavior Modification. Volume 38 Issue 6, November 2014, pp. 32-37.
10. Langhinrichsen Rohling, J., P. Neidig and G. Thorn. Violent Marriages: Gender Differences in Levels of Current Violence and Past Abuse // Journal of Family Violence. 1995, Vol. 10, pp.159-176.
11. Blondel Ch. La Conscience Morbide: Essai De Psychopathologie Générale. London: Wentworth Press, 2018, 348 p.
12. Фромм Э. Анатомия человеческой деструктивности. М.: АСТ, Астрель, 2010, 624 с.
13. Калабихина И.Е., Козлов В.А. Домашнее насилие в отношении женщин в современной России: влияние социально-демографических характеристик супругов на распространенность насилия // Материалы конференции, состоявшейся 15-16 мая 2003 г. в МГУ им. М.В. Ломоносова и Горбачев-Фонде. – М.: МАКС Пресс, 2003.
14. Ростовская Т.К., Калиев Т.Б., Завьялова Н.Б., Безвербный В.А. Профилактика насилия как фактор безопасности семьи: российский и казахстанский опыт // Женщина в российском обществе. 2018. № 1(86). с. 78-88.

***Резюме***

***Мафтуна Исмаилова***

***Теоретические подходы к домашнему насилию***

В XXI веке научные, культурные, социальные, политические и другие достижения и прогресс человечества привели к новому содержанию многих ценностей и изменению сущности общественных отношений. В новую эпоху продолжается процесс трансформации семьи как социального института. Несмотря на то, что в сфере женско-мужских и гендерных отношений было достигнуто множество гуманитарных успехов, домашнее насилие по-прежнему считается одной из наиболее распространенных травмирующих ситуаций.

В статье в качестве объекта исследования анализ теоретических подходов к проблеме домашнего насилия. Здесь наряду с классическими авторами, такими как З.Фрейд, Э.Фромм, в

качестве объекта анализа были взяты концептуальные работы современных исследователей домашнего насилия, определены возможности исследования межгендерного насилия в современной семье. В статье рассматривается насилие в различных формах в рамках соответствующих теорий. Концепции, сформированные в результате эмпирических исследований, могут помочь по-новому подойти к домашнему насилию и определить возможности решения этой проблемы в обществе.

Целью является исследование теоретической и методологической основы влияния домашнего насилия на гендерные и семейные отношения.

Содержание, сущность и формы домашнего насилия изучаются методами сравнительного анализа, синтеза и интерпретации.

Результаты исследования – изучение теоретических основ гендерного домашнего насилия, позволяют выявить направления изучения данной проблемы в мире и в нашей стране. Исследования также показывают, что антисоциальное поведение, такое как домашнее насилие, связано с рядом факторов, связанных в цепочку. Домашнее насилие, проявляющееся в результате семейного конфликта, проявляется в результате конкуренции и противостояния в обществе между мужчиной и женщиной, мужем и женой. Домашнее насилие, которое зачастую сопровождается доминированием физически, экономически и психологически более сильной стороны, заканчивается распадом семьи, которая считается ядром общества, или возникновением различного уровня преступности.

***Ключевые слова:*** *гендерное неравенство, биопсихологический подход, психоаналитический подход, экономический подход, влияние среды.*

***Summary***

***Maftuna Ismailova***

***Theoretical Approaches to Domestic Violence***

In the 21st century, scientific, cultural, social, political and other achievements and progress of mankind have led to a new content of many values and a change in the essence of social relations. In the new era, the process of transformation of the family as a social institution continues. Although many humanitarian advances have been made in the area of women's-men's and gender relations, domestic violence is still considered one of the most common traumatic situations.

The article takes as the object of study an analysis of theoretical approaches to the problem of domestic violence. Here, along with classical authors such as S. Freud, E. Fromm, the conceptual works of modern researchers of domestic violence were taken as the object of analysis, and the possibilities of studying intergender violence in the modern family were identified. The article examines violence in various forms within the framework of relevant theories. Concepts developed through empirical research can help reframe domestic violence and identify opportunities to address the problem in society.

The goal is to study the theoretical and methodological basis of the impact of domestic violence on gender and family relationships.

The content, essence and forms of domestic violence are studied using the methods of comparative analysis, synthesis and interpretation.

The results of the study - the study of the theoretical foundations of gender-based domestic violence – allow us to identify directions for studying this problem in the world and in our country. Research also shows that antisocial behavior such as domestic violence is associated with a number of factors linked in a chain. Domestic violence, which manifests itself as a result of family conflict, manifests itself as a result of competition and confrontation in society between a man and a woman, a husband and a wife. Domestic violence, which is often accompanied by dominance by the physically, economically and psychologically stronger party, ends in the disintegration of the family, which is considered the core of society, or the emergence of various levels of crime.

***Key words:*** *gender inequality, biopsychological approach, psychoanalytical approach, economic approach, environment influence*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.